# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№375/5** **23 aprel 2025-ci il**

**Auditorlar Palatası tərəfindən "Auditorun səsi" mövzusunda 2025-ci il 14 mart tarixində keçirilmiş onlayn müzakirədə verilən təkliflərin reallaşdırılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 11.5-ci "Auditorun səsi" mövzusunda onlayn müzakirənin təşkili" bəndinin icrasının təmin etmək məqsədilə auditor təşkilatlarının nümayəndələrinin, sərbəst auditorların və Palatanın struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə 2025-ci il 14 mart tarixində keçirilmiş tədbir zamanı verilən təkliflərin nəzərə alınması və reallaşdırılması məqsədilə Aparatın rəhbəri Q.Bayramovun məruzəsini dinləyərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının üzvləri tərəfindən (Aygün Səfərova, Elnur İbrahimov, Lamiyə Bayramova, Mehdi Babayev, Nəcəf Talıbov, Rüfət Əliyev, Rəşad Həsənov, Şamxal Kərimov) verilən təkliflər nəzərə alınsın.

2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki,

2.1. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun və "Öhdəlik daşıyan şəxslər, habelə auditor fəaliyyəti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi Qaydası"nın tələblərinə düzgün riayət etməklə həmin Qanunun 11.1, 11.2, 11.3, 4.14, 4.15-ci maddələrində nəzərdə tutulmuş şübhəli əməliyyatlar aşkar etdikdə məlumat və sənədlərin müəyyən olunmuş müddətlərdə Maliyyə Monitorinqi Xidmətinə təqdim olunması təmin edilsin;

2.2. auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə auditor xidmətləri göstərərkən Beynəlxalq Audit Standartlarının, Auditorlar Palatası Şurasının 2025-ci il 24 yanvar tarixli 373/1 nömrəli qərarı ilə bəyənilmiş "2024-cü ilin 15 dekabr tarixindən qüvvəyə minən Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqi üzrə Təlimat"ın tələblərinə düzgün riayət etməklə qeyri-peşəkar davranışlara və haqsız rəqabət hallarına yol verməsinlər.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) və Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə riayət etməyən auditorların işlərinin Palata Şurasının təsdiq etdiyi müvafiq sənədlərin icrasına mütəmadi və operativ qaydada nəzarətin gücləndirilməsi və tələb olunan minimum hədlərə əməl etməyən auditorlara qarşı daha təsirli tənbeh tədbirlərinin tətbiq olunması üçün iki həftə müddətində təkliflərin verilməsi və onların reyestrinin aparılmasının davam etdirilməsi təmin edilsin.

4. Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (E.Əliyev) və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) tapşırılsın ki, iki ay müddətində auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə qaydalara ictimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə audit aparan auditorlarda hər il keyfiyyətə kənar nəzarətin monitorinqinin aparılmasına dair dəyişikliklərin olunması və auditin keyfiyyətinə kənar nəzarətin monitorinqinin keyfiyyətinin yüksəldilməsi üzrə müvafiq tədbirlərin həyata keçirilməsi barədə təkliflərin işlənib hazırlanması və həmin Qaydaların tam tətbiq olunması təmin edilsin.

5. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) tapşırılsın ki, auditin keyfiyyətinə kənar nəzarətin monitorinqi zamanı tender keçirilən Publik Hüquqi Şəxslərdə və ictimai əhəmiyyətli qurumlarda Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərindən aşağı məbləğdə müqavilə bağlayıb audit aparan auditorların işləri hər ay təhlil edilsin və həmin auditorlarda növbədənkənar keyfiyyətə nəzarətə dair monitorinqin aparılması təmin edilsin.

6. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov), Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə riayət edilməsi məqsədilə operativ qaydada auditorla sifarişçi arasında bağlanılmış müqavilə məbləğinin auditorun şəxsi kabineti sistemində qeydiyyata alınmış müqavilə məbləği ilə müqayisəsi, həmçinin auditorun şəxsi kabineti sistemində sifarişçinin dövriyyəsinin süni şəkildə aşağı salınması halları araşdırılsın və nəticəsi barədə Palatanın rəhbərliyinə məlumatın təqdim olunması təmin edilsin.

7. Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinə (E.İbrahimov) tapşırılsın ki:

7.1. Auditdən yayınan məcburi audit subyektlərinə qarşı tətbiq olunan cərimə məbləğlərinin artırılmasına dair hazırlanmış qanuna dəyişiklik layihəsinin aidiyyəti qurumlarla razılaşdırılması qısa müddət ərzində başa çatdırılsın;

7.2 ƏL/TMM sahəsində auditorlara metodoloji dəstəyin və əməli köməkliyin göstərilməsinin gücləndirilməsi və mütəmadi olaraq davam etdirilməsi təmin edilsin.

8. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**